*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 5, 2024*
*Səh. 351-357*
https://doi.org/10.62837/2024.5.351

**GÜNEL ƏHMƏDOVA**
***AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu***
***Ədəbiyyat nəzəriyyəsi şöbəsinin doktorantı***
***gunel_9704@mail.ru***

# FELYETONLARIN SKEÇ-ŞOULARIN YARANMASINA TƏSİRİ

**XÜLASƏ**

Azərbaycan ədəbiyyatında felyetonlar olduqca böyük rola malikdir. Felyeton cəmiyyətin nöqsanlarını, çatışmazlıqlarını ifşa etmək üçün mühüm bir vasitədir. Bu formada yazılan əsərlər təkcə yazıldığı dövr üçün deyil, müasir dövrümüz üçün də aktualdır. Felyetonun forma müxtəlifliyi onun müasir dövrümüzdə mövcud olub-olmamasını sual altında qoysa da, əslində bu müxtəliflik janrın ədəbi-publisistik gücünü daha aydın görməyə imkan verir. Felyetonlar müasir dövrdə ekranlarda tez-tez rast gəldiyimiz skeç-şouların yaranmasına böyük təkan vermişdir. Bu məqalədə də felyeton və skeç-şouların əlaqəsi nəzəri kontekstdə təhlilə cəlb olunmuşdur. Felyeton janrı yeniliklərə hər zaman açıq olmuş və bu janrda müəyyən dəyişikliklərin meydana gəlməsinə gətirib çıxarmışdır. Hazırda ekranlaşdırılan bir çox skeç-şouların ssenarisini ayrılıqda nəzərdən keçirdikdə onun felyeton formasında olduğunun şahidi oluruq. Bu baxımdan felyetonların və skeç-şouların qarşılıqlı əlaqəsinin müəyyənləşdirilməsi çox vacibdir. Bu həm kinoşünaslıq, həm jurnalistika, həm də ədəbiyyat üçün olduqca mühüm bir məsələdir. Janrlararası əlaqələrin mövcudluğu bir janrın digərinə təsirinə yol açır. Janrın tarixi inkişafı prosesi onun daxilində müxtəlifliklərin, dəyişikliklərin yaranması ilə nəticələnir. Bu zaman o, başqa formalara çevrilərək yeni xüsusiyyətlər qazanır. Buna görə bəzən janrın ölümü məsələsi ortaya atılır. Lakin əslində bu janrın ölümü deyil, müxtəlif formalarda inkişaf etməsi, yeniləşməsidir.

**Açar sözlər:** felyeton, skeç-şou, ədəbiyyat, mətbuat, televiziya, səhnə

**Gunel Ahmadova**

## THE INFLUENCE OF FEULETONS ON THE CREATION OF SKETCH-SHOWS

**ABSTRACT**

Feuilletons play a very important role in Azerbaijani literature. The feuilleton is an important tool for exposing the flaws and shortcomings of the society. The works written in this form are relevant not only for the period in which they were written, but also for our modern times. Although the variety of form of the feuilleton calls into question whether it exists in our modern times, in fact, this diversity allows us to see the literary-journalistic power of the genre more clearly. Feuilletons gave a great impetus to the creation of sketch shows that we often see on the screens at the present time. In this article, the relationship between feuilleton and sketch shows is analyzed in a theoretical context. The feuilleton genre has always been open to

innovations and has led to certain changes in this genre. If we consider the script of many sketch shows that are screened separately, we can see that it is in the form of feuilleton. From this point of view, it is very important to determine the interaction of feuilletons and sketch shows. This is a very important issue for film studies, journalism, and literature. The existence of inter-genre relationships leads to the influence of one genre on another. The historical development process of the genre results in the emergence of variations and changes within it. At this time, it transforms into other forms and acquires new properties. Therefore, sometimes the question of the death of the genre is raised. But in fact, it is not the death of this genre, but its development and renewal in various forms.
**Keywords:** feuilleton, sketch show, literature, press, television, stage

**Giriş**

Vizuallığın artdığı müasir dövrümüzdə ekran işlərinə maraq daha da genişlənmişdir. Bu isə öz növbəsində skeç-şoulara marağın artmasına səbəb olmuşdur. Oxumaqdan çox izləməyə üstünlüyün verildiyi çağdaş zamanda ekran əsərləri daha çox diqqət çəkməyə başlamışdır. Eyni zamanda ekran əsərləri içərisində qısalığı, lakonikliyi və komikliyi ilə seçilən skeç-şoular tamaşaçıların üstünlük verdiyi əsərlərdəndir.

Burada skeç-şouların yaranmasına felyeton janrının təkan verdiyini qeyd etmək lazımdır. XIX əsrin sonları və XX əsrdə qəzetlər və jurnallarda çoxsaylı felyetonlar nəşr olunmuşdur. Amma indi bu felyetonların yerini daha çox skeç-şouların tutduğunu görürük. Skeç-şoular da felyetonlar kimi satirik-ironik üslubdadır, felyetonlarda olduğu kimi cəmiyyətin problemləri gülüş vasitəsilə tənqid edilir.

Həm felyetonlarda, həm də skeç-şoularda komik ab-hava hakimdir. Bu baxımdan biz qeyd edə bilərik ki, oxucunu güldürərək düşündürən felyetonların skeç-şouların yaranmasında böyük rolu var.

**Əsas hissə**

İlk olaraq fransız mətbuatında yaranan felyeton janrı zaman keçdikcə fərqli formalara transformasiya olunmuş, felyeton-məqalə, felyeton-müsahibə, felyeton-dialoq, felyeton-esse, felyeton-yumoristik hekayə, felyeton-parodiya və s. kimi formaları yaranmışdır [4, s. 32].

Skeç-şoular xarakter və ya vəziyyətin komik təhlilinə həsr olunmuş əsərlərdir. Belə əsərlər qısa, gülməli və səhnədə canlı ifa olunan (və yaxud audio və ya video formatda yazılmış, ekranlaşdırılmış) vizual əsərlərdir. Burada ictimai nöqsanlar satirik ifşa hədəfi kimi götürülür. Bu nöqsanların aradan qaldırılması üçün qısa və komik süjetlər ekranlaşdırılır.

Skeç-şouya Kollins lüğətində belə tərif verilmişdir: "Müxtəlif qısa komediya səhnələrindən ibarət televiziya şousu və ya ictimai tamaşa" [1].

Müasir dövrdə felyetonların mövcud olub-olmaması məsələsi ilə bağlı qeyd edə bilərik ki, felyetonlar fərqli formalarda mövcudluğunu davam etdirir.

Tahirə Məmməd bununla bağlı yazır: "Onun başqa janrlar arasında sıradan çıxması fikri nümayiş etdirdiyi forma müxtəlifliyindən də qaynaqlanır; nəzm, nəsr və

dialoq şəklində yazıla bilir. Fərqli formada meydana gəlməsi janrın plastikliyi ilə bərabər çevrilmə imkanlarını da artırır" [2, s. 14].

Cavanşir Yusiflinin "Janrdaxili proseslər: qısa hekayələr" məqaləsində müəllif janrların transformasiyasından bəhs edərək yazır: "Janrlar həmişə özünə bənzəyən yox, tam əksinə, heç bənzəməyən başqa janrların ərazilərinə meyil edər, nəsrin poeziyadan, poeziyanın nəsrdən əxz etdiyi keyfiyyətlər məhz bu "istila" estetikasının ruhundan irəli gəlir. ...Bu proseslər baş verdikdə ağlımıza ilk gələn "janrın tükənməsi" hissi olur, bəzən sovet dönəmindən bu günə qədər "janrın ölümü" (romanın sonu, tənqidin ölümü və sair...) ilə bağlı gedən söhbətlərin məğzi əslində janr transformasiyası hadisəsinə aiddir və yalnız onunla bağlıdır" [5].

Janrlar tükənmir, süqut etmir, lakin transformasiyaya uğrayaraq yenilənir, dəyişir, fərqli özəlliklər qazanaraq yeni formada həyatını davam etdirir. Bu yenilik bəzən janrın süqutu kimi xarakterizə edilsə də, əslində onun yeni həyatının başlanğıcıdır. Yaşaması üçün zəruri bir hadisədir. Çünki zaman keçdikcə ədəbi janrlarda yeniliklər meydana gəlir, bir çox janrlar bir-birinə təsir edərək yeni xüsusiyyətlər kəsb edir.

"Məsələ belədir ki, janrın "anadangəlmə" xüsusiyyətləri zamanla ən müxtəlif formalarda dəyişir, transaqressiyaya uğrayır, yəni bəzi elementlər birləşir, bəziləri formanın dağılması (öz divarları içində "partlaması") effektini verir. Zamanla romanla teatr, hekayə ilə poeziya arasında bizim birbaşa müşahidə edə bilmədiymiz proseslər gedir. Janr bu proseslərin sonucunda "yoxa çıxır" və bir daha, bir daha geri qayıdır, hər ədəbi nəsil onun sonsuz imkanlarının bir qismini kəşf edir, janrdaxili transaqressiya və konflikt bu prosesi sürətləndirir" [5].

Felyeton janrında da bu transformasiya hadisəsi baş vermiş, janr yeni formalara çevrilmişdir. Hazırda felyeton janrının mövcud olub-olmaması ilə bağlı mübahisə məhz bundan qaynaqlanır. Janr transformasiyası felyeton janrında aydın görünür. T.Şavladze və M.Maxaradzenin "Modern ingilis felyetonu" məqaləsində qeyd olunur ki, müasir ingilis felyetonunun funksiyası cəmiyyətin mənfi cəhətlərini gülüş hədəfinə çevirmək, yanlış siyasəti, siyasi liderləri, kral ailəsini, məşhurları və onların səhv həyat tərzini tənqid etməkdir. Burada müasir ingilis felyetonlarının XVIII-XIX əsrlərdəki qədər sərt olmadığı, felyetonların öz kəskinliyini itirdiyi və yumoristik hekayəyə və ya məqaləyə bənzədiyindən söz açılır. Daha sonra felyetonun müasir dövrdə mövcudluğu məsələsi ilə bağlı qeyd olunur: "İngilis satirik məqaləsinin təhlili göstərir ki, İngiltərədə "felyeton" termini mövcud deyil, amma biz felyetonun hibrid formalarına rast gələ bilərik, məsələn, felyeton-məqalə, felyeton-esse, felyeton-dialoq, felyeton-müsahibə, felyeton-yumoristik hekayə, felyeton-parodiya və s. Bu fakt bizi İngiltərədə felyetonun çox inkişaf etmiş formalarının olduğunu düşünməyə sövq edir" [4, s. 32].

Müasir zamanın tələbləri felyeton janrında da dəyişikliklərin, yeniliklərin yaranmasına gətirib çıxarmışdır. Felyetonlar bir çox ekran əsərlərinin, tamaşaların, skeç-şouların mətnləri kimi nəzərə çarpmağa başlamışdır. Belə ki, skeç-şoular felyeton janrının transformasiyası, KİV-lərin texnoloji imkanlarının artması, kiçik həcmli səhnəciklərin daha maraqla qarşılanması nəticəsində meydana gəlmişdir. Janr

transformasiya olunaraq yeni xüsusiyyətlər qazanmış, ilkin variantından fərqli şəkildə təzahür etmişdir.

Əslində bu həm janrların bir-birilə əlaqəsindən, həm də zaman keçdikcə yaranan yeniliklərdən doğur. Bir janr digərinə təsir edir, eyni zamanda meydana gələn yeniliklər janrlarda da yenilənmənin təməlini qoyur. Artıq qəzet və jurnallarda çap olunmaqla təşəkkül edən felyeton janrı yeni xüsusiyyətlər qazanaraq skeç-şouların yaranmasına təkan verir. Burada mətbuat janrı bir çox hallarda səhnə janrı kimi də qarşımıza çıxır. Lakin mətbuatda az da olsa, felyetonlara rast gəlmək mümkündür.

Tahirə Məmməd Üzeyir Hacıbəylinin kiçikhəcmli səhnəciklərindən bəhs etdiyi məqaləsində təhlil etdiyi səhnəciklərin felyeton və ya skeç-şou kimi dəyərləndirilə biləcəyini qeyd edir. Amma skeç-şou üçün "ciddi rejissor texnikasına ehtiyac" [2, s. 14] olduğunu vurğulayır.

Skeç-şouların ssenarisini, əsas mətnini felyetonlar kimi xarakterizə etmək olar. Skeç-şoular üçün felyetonlar olduqca əlverişlidir. Felyetonlar skeç-şou mətnləri kimi istifadə edilə bilər. Ədəbi-publisistik mətn kimi diqqət çəkən felyetonlar təkcə skeç-şouların daxilində deyil, bir çox ekran işlərinin də ilkin variantı kimi diqqəti cəlb edir. Burada fikrimizi əsaslandırmaq üçün Nəriman Nərimanovun "Telefon" (Bürhani-tərəqqi" qəzeti, 1910-cu il) başlığı ilə çap olunan dialoqla yazılan felyetonlarından birinə nəzər salaq. İctimai-siyasi proseslərin işıqlandırıldığı bu felyetonda dialoqun xüsusi əhəmiyyəti var.

Felyetonda "Bürhani-tərəqqi" qəzetinə zəng edən Arı bəy söyləyir:

" – Əhvalat çox fəqət hələ bunları yazınız: cənab konsulun teatr barəsində verdiyi hesab cəmi rus, firəng, alman, ingilis, yapon qəzetlərində çap olunacaqdır. Tainki bu millətlər dəxi zəhmət çəkib tufandan tələf olan iranlıların yetimlərinə ianə göndərməsinlər. Çünki ianə göndərib iranlıların boyunlarına bir böyük haqq qoyacaqlar. Nə lazım düşüb canım! Hazır özümüz, Allah bərəkət versin, teatrdan lazım olan pulu götürdük. Qoy əcnəbilər bizim də qeyrətimizi, həmiyyət-himmətimizi görüb sarsaq-sarsaq söylənməsinlər. "Vəhşi müsəlman" – deməsinlər. Bir iş var, yığılan ianə gərək hər şəhərə ayrı-ayrı göndərilə.

Məsələn: əlli qəpik Ərdəbilə və qeyr. Böylə olan surətdə poçta xərci barəsində məsələ hazırda ciddiyyətlə müzakirə olunur..." [3, s. 363].

Felyetonda digər ölkələrin İran üçün ianə göndərməsinə qarşı çıxılır, çünki əgər onlar ianə göndərsə, İranın işlərinə daha çox müdaxilə edəcəklər.

Felyetonda daha sonra qeyd olunur:

" – Cənab Arı bəy! Bu barədə Peterburqdan nə xəbər?

–O barədə vəkillər gələndən sonra böyük "doklad" olunacaqdır...

*Ay Moskva şəhərində bir qız sevmişəm,*
*Ay sarıbaş sonama dərdim demişəm.*
*Bağçada güllər,*
*Oxur bülbüllər.*

–Drr... Drr... Drr...

–Canım, nə söyləyirsən, Arı bəy. Bu şikəstə oxuyan kimdir, qoymur sözlərinizi yaxşı eşidim, sözünüz yarımçıq qaldı. Söyləyiniz görüm.

–İdarəmi, ha ha ha, bağışlayınız, sözüm qurtardı. Ancaq kefim gəlmişdi, ona görə yavaş-yavaş zümzümə edirdim. Fikr etdim ki, eşitməzsiniz, nə bilim ki, "telefon" belə gurultu salır.

Drr... Drr... Drr... " [3, s. 363].

Bu hissə əsərin komikliyini artırır. Oxucunun simasında bir təbəssüm yaranır. Əsər skeç-şou mətnlərini xatırladır. Felyeton mətnlərinin ekranlaşdırılaraq skeç-şou kimi istifadə edilə biləcəyini göstərir. Bu mənada xüsusilə dialoq şəklində verilən felyetonların böyük əhəmiyyəti var. Onlar müasir skeç-şouların yaranmasına təkan vermişdir.

"Mozalan" kinojurnalı Azərbaycanda ilk satirik skeç-şou kimi səciyyələndirilə bilər. 1971-ci ildə təsis olunmuş kinojurnalın ilk baş redaktoru Eyvaz Borçalı olmuşdur. 1984-1998-ci illərdə isə Ziyafət Abbasov kinojurnala rəhbərlik etmişdir. "Mozalan"ın təsisi Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə gerçəkləşmişdir. "Mozalan" kinojurnalının ilk baş redaktoru Eyvaz Borçalı bununla bağlı söyləmişdir: "Hesab edirəm ki, o çox düzgün mövqe tutmuşdu. Kəm-kəsirləri, nöqsanları üzə çıxarıb ifşa etmək üçün belə bir tele-jurnalın nəşrinə göstəriş verdi" [6]. Baş redaktor daha sonra "Molla Nəsrəddin" jurnalının "Mozalan" kinojurnalının yaranmasındakı rolundan da bəhs etmişdir: "Molla Nəsrəddin"i, Sabiri oxuyursan, elə bil bu günün mövzularından yazıblar. Biz də elə "Molla Nəsrəddin"dən, Sabirdən ilhamlanaraq "Mozalan"ın mövzularını işləmişik" [aki.az]. "Mozalan"ın yaradıcı heyətinə İsi Məlikzadə, Arif Babayev, Rasim Ocaqov, Cahangir Mehdiyev, Seyfulla Bədəlov, Rafiq Tağızadə, Oqtay Mirqasımov, Ziyafət Abbasov, Anar, Fərman Kərimzadə, Abbas Abdulla, Vaqif Mustafayev, Ceyhun Mirzəyev, Elçin, Ramiz Rövşən, Sabir Rüstəmxanlı, Məmməd Araz, Fikrət Qoca və b. daxil idilər. "Mozalan"ın aktyorları sırasında isə Ağasadıq Gəraybəyli, Hacıməmməd Qafqazlı, Səməndər Rzayev, İsmayıl Osmanlı, Hacı İsmayılov, Ramiz Əzizbəyli, Məlik Dadaşov, Yaşar Nuri, Siyavuş Aslan, Əliağa Ağayev, Fazil Salayev, Şamil Süleymanov, Eldəniz Zeynalov, Telman Adıgözəlov, İlham Namiq Kamal və b. var idi [6, 7, 8].

Neqativ halları ifşa etmək, ictimai çatışmazlıqları göstərmək "Mozalan" kinojurnalındakı hər bir parçanın məğzində duran əsas məqsəddir. Burada cəmiyyətdəki neqativ hadisələrə qarşı kəskin, sərt, amansız münasibət öz əksini tapmışdır. Bu münasibət felyetonlar üçün də vacibdir. Hər bir felyetonda biz bu münasibətin şahidi oluruq. Bu baxımdan da satirik kinojurnalların hər bir süjetinin mətni felyeton kimi xarakterizə oluna bilər. Real həyata istinad edərək cəmiyyətin problemlərinin işıqlandırılması həm felyetonlar, həm də skeç-şoular üçün başlıca amildir. Sovet dövründə informasiyanın ötürülməsi olduqca məhdud idi. Belə bir zamanda kinojurnalların yaranması dövrün reallıqlarının tamaşaçılara çatdırılması üçün çox əhəmiyyətli idi. Onlar müasir skeç-şouların yaranmasına təkan verən ilkin nümunələrdir. Bu baxımdan skeç-şou və felyetonların əlaqəsindən bəhs edərkən onları nəzərdən qaçırmaq olmaz.

Kinojurnalların felyeton formasında olması fikri N.Sputnitskayanın "Fitil" kinojurnalı: Rusiyada publisistika və siyasi satira təcrübəsi" adlı məqaləsində də öz əksini tapmışdır. Müəllif burada "Fitil" kinojurnalından söz açaraq onun felyeton formasında olduğunu vurğulamışdır [9, s. 31]. Təsadüfi deyil ki, kinojurnallara tele-felyetonlar da deyilir. Kinojurnalların hər bir süjetini müasir skeç-şouların ilkin variantları kimi izah etmək mümkündür.

Müasir dövrdə bir çox skeç-şoular çəkilir. Bu skeç-şouların yaranmasında da felyeton mətnlərinin böyük rolu var. Çünki onların mətnlərini ayrıca dəyərləndirsək, hər birinin felyeton formasında olduğunu görərik.

## Nəticə

Skeç-şou və felyetonları müqayisəli şəkildə təhlilə cəlb etdikdə onların bir sıra oxşar cəhətlərinin olduğunun şahidi oluruq. Bunun nəticəsində söyləyə bilərik ki, felyetonlar müasir skeç-şouların meydana gəlməsində böyük rola malikdir. Bir çox tədqiqatçılar müasir dövrümüzdə felyetonun ömrünü tamamladığını qeyd etsə də, onlar müxtəlif formalarda yaşayır, məsələn, felyeton-məktub, felyeton-hekayə, felyeton-esse, felyeton-müsahibə və s. Skeç-şou mətnləri də felyetonların ömrünü davam etdirdiyini sübut edir.

Hazırda felyeton həm ənənəvi formada, həm də müasir daha fərqli formalarda mövcudluğunu qoruyub saxlayır.

## ƏDƏBİYYAT

1. Collins Dictionary. Sketch show. 22.01.2024. URL: https://www.collinsdictionary.com/dictionary/english/sketch-show
2. Məmməd, T. Üzeyir Hacıbəylinin kiçik həcmli dramlarında forma və məzmun, janr problemi. "Tarixdə şəxsiyyətin rolu" Üzeyir Hacıbəylinin anadan olmasının 135 illik yubileyinə həsr olunmuş VIII Beynəlxalq elmi simpoziumun materialları. Qars, 2020, s. 11-14
3. Nərimanov, N. Seçilmiş əsərləri. Bakı: "Lider nəşriyyat", 2004, 496 s.
4. Shavladze T., Makhazaradze M. Modern English feuilleton. Galaxy: An International Multidisciplinary Research Journal. Vol: 6, Issue II, March 2017, pp. 29-32
5. Yusifli, Cavanşir. Janrdaxili proseslər: qısa hekayələr. 11.04.2022. URL: https://edebiyyatqazeti.az/news/edebi-tenqid/8733-janrdaxili-prosesler-qisa-hekayeler
6. "Mozalan kinojurnalının yaranma tarixindən. 07.02.2024. URL: https://aki.az/mozalan-kinojurnalinin-yaranma-tarixin%c9%99-qisa-baxis/
7. Gülüşü ilə düşündürən – "Mozalan". 20.01.2024. URL: https://pia.az/amp/?id=11882
8. Bir "Mozalan" vardı. 03.02.2024. URL: https://kinoyazar.az/bir-mozalan-vardi/
9. Спутницская, Н.Ю. Киножурнал «Фитиль»: публицистика и опыт политической сатиры в России. Телекинет, 2018, №4(5), с. 30-32

*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 5, 2024*
*Səh. 351-357*

**Гюнель Ахмедова**

**ВЛИЯНИЕ ФЕЛЬТОНОВ НА СОЗДАНИЕ СКЕТЧ-ШОУ**

Фельетоны играют очень важную роль в азербайджанской литературе. Фельетон является важным инструментом разоблачения пороков и недостатков общества. Произведения, написанные в такой форме, актуальны не только для того периода, в который они были написаны, но и для нашей современной эпохи. Хотя разнообразие форм фельетона ставит под вопрос, существует ли он в наше время, на самом деле это разнообразие позволяет яснее увидеть литературно-публицистическую силу жанра. Фельетоны дали большой толчок созданию скетч-шоу, которые мы часто видим на экранах в наше время. В данной статье взаимосвязь фельетонов и скетч-шоу анализируется в теоретическом контексте. Жанр фельетонов всегда был открыт для новшеств и привел к определенным изменениям в этом жанре. Если мы рассмотрим сценарий многих скетч-шоу, которые показываются отдельно, мы увидим, что он имеет форму фельетона. С этой точки зрения очень важно определить взаимодействие фельетонов и скетч-шоу. Это очень важный вопрос для киноведения, журналистики, литературы. Существование межжанровых отношений приводит к влиянию одного жанра на другой. Процесс исторического развития жанра приводит к возникновению вариаций и изменений внутри него. В это время он трансформируется в другие формы и приобретает новые свойства. Поэтому иногда поднимается вопрос о смерти жанра. Но на самом деле это не смерть этого жанра, а его развитие и обновление в различных формах.

**Ключевые слова:** фельетон, скетч-шоу, литература, пресса, телевидение, сцена.

**Rəyçi: Fil.e.d., prof. Tahirə Qəşəm qızı Məmməd**